**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАН-СКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЕГЯНА БАХЫШ гызы АСКЕРОВА**

# РОЛЬ ТВОРЧЕСТВА А.А.АЛИЗАДЕ В РАЗВИТИИ НАУЧНОЙ ПСИХОЛОГИИ В АЗЕРБАЙДЖАНЕ

6107.01. – Общая психология

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**YEGANƏ BAXIŞ QIZI ƏSKƏROVA**

# AZƏRBAYCANDA ELMİ PSİXOLOGİYANIN İNKİŞAFINDA Ə.Ə.ƏLİZADƏ YARADICILIĞININ ROLU

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı – 2016**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Əməkdar müəllim, psixologiya üzrə elmlər doktoru, professor **Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor **Gülnara Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Akif Əlihüseyn oğlu Quliyev**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin Pedaqogika və Psixologiya kafedrası**

Müdafiə “_29__” “__10_______” 2016-cı ildə saat “___” da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2016 - cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının
elmi katibi, psixologiya üzrə
fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin, elmin vəzifələri dəyişir. Ağlın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının dediyi bu fikirlər Azərbaycan dövlətinin təhsil siyasətinin başlıca vəzifələrini və istiqamətini müəyyənləşdirir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi, onun gələcək həyatını müəyyən edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir".

Müasir dövrdə bütövlükdə cəmiyyətdə, eləcə də təhsil sistemində psixoloji biliklərin tətbiqinə xüsusi ehtiyac var. Bu zəmində artıq pedaqoji, yaş psixologiyasının, eləcə də pedaqogikanın vəhdətindən yaranan psixopedaqogika geniş vüsət alır. Lakin psixoloji biliklər məktəb təcrübəsinə mexaniki qaydalarla deyil, yaradıcılıqla tətbiq edilməlidir. Bütün bunlar isə sadə, mexaniki yolla həyata keçirilə bilməz. Bir tərəfdən psixologiya elmi özü inkişaf etməli, dövrün, zamanın tələblərinə cavab verməlidir, digər tərəfdən də tətbiqi istiqaməti inkişaf etdirilməlidir.

Elmi psixologiyanın inkişafında Azərbaycan psixoloqlarının rolu çox böyükdür. Onlardan A.O.Makovelski, F.Ə.İbrahimbəyov, Ə.K.Zəkuyev, M.C.Məhərrəmov, M.Ə.Həmzəyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.H.Əliyev, S.İ.Seyidov və b. tədqiqat işləri yalnız respublikamızda deyil dünya miqyasında tanınmışdır. Azərbaycan psixologiyasında özünəməxsus dəstixətti və elmi yaradıcılığı olan tədqiqatçılardan biri də professor Ə.Ə.Əlizadədir.

Azərbaycanda elmi psixologiyanın yaranması və inkişafında psixologiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin müstəsna xidmətləri olmuşdur. Ə.Ə.Əlizadənin elmi-pedaqoji fəaliyyətinin, yaradıcılığının formalaşmasında Azərbaycan elmi psixologiyasının da rolu əvəzsizdir.

İstər Ə.Ə.Əlizadənin xidmətlərinin dərk olunması, istərsə də onun elmə verdiyi töhfələrin dərk olunması baxımından Azərbaycanda psixoloji fikrin, elmi psixologiyanın inkişaf yolunu araşdırmaq vacibdir. Ə.Ə.Əlizadə yaradıcılığının formalaşmasında bir tərəfdən sovet psixoloqlarının, o cümlədən Azərbaycan psixoloqlarının güclü təsiri olmuşsa, digər tərəfdən də ictimai mühitin təsiri özünü göstərmişdir. Ə.Ə.Əlizadənin elmi yaradıcılığı psixologiya elminin inkişafı ilə həmahəng inkişaf etmişdir.

Ə.Ə.Əlizadənin çoxölçülü yaradıcılığı qlobal şəkildə psixologiyanın bütün sahələrinə nüfüz etmişdir. O, təhsili mədəniyyətin tərkib hissəsi hesab edir. Ə.Ə.Əlizadənin irəli sürdüyü bu ideya Azərbaycan təhsil islaha-

tının ana xəttini təşkil edir. Təhsilə mədəniyyət kontekstindən yanaşan Ə.Ə.Əlizadə ənənəvi və müasir didaktik sistemin nəzəri metodoloji köklərini də burada görür. Ə.Ə.Əlizadəyə görə "mədəniyyət insanın ikinci təbiəti, özünütəsdiqidir". Aydındır ki, belə bir mədəniyyətin formalaşmasına xidmət edən təhsil və onun hərəkətverici qüvvəsi olan məktəb ənənəvi qaydalarla işləyə bilməz. Ə.Ə.Əlizadə XXI əsri ağlın, intellektin təntənəsi əsri adlandırır və göstərir ki, respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intellekt ocağı olmasını tələb edir. Ə.Ə.Əlizadə hesab edir ki, məktəb həm də Prometey missiyasını yerinə yetirməlidir. Onun qığılcımları uşaqların təfəkkür ocağına güc, qüvvət verməlidir. Özünün sanballı və ciddi elmi-nəzəri əhəmiyyət daşıyan əsərləri ilə Ə.Ə.Əlizadə Azərbaycan psixologiyasında yeni ideyaların və konseptual mövqelərin müəllifi kimi tanınır. Bütün bunlarla yanaşı Ə.Ə.Əlizadənin tədqiqatlarının geniş rakursdan araşdırılması və elmi ideyalarının sistemli tədqiqat obyektinə çevrilməsi, eləcə də onun tədqiqatlarının müasir psixologiya elmi üçün geniş əhəmiyyətinin nəzərə alınması bu yaradıcılığın tədqiqini aktual edir. Biz bu mövqedən çıxış edib "Azərbaycanda elmi psixologiyanin inkişafinda Ə.Ə.Əlizadə yaradıcılığının rolu" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Azərbaycanda psixoloji fikrin inkişaf tarixi göstərir ki, respublikamızda psixologiya elmi əsasən iki mənbədən qaynaqlanaraq inkişaf etmişdir. Bunlardan biri sovet psixoloqlarının elmi ideyaları, ikincisi xalq yaradıcılığı, Azərbaycan mütəfəkkirlərinin, klassik şair və yazıçılarının əsərlərində irəli sürülən fikir və ideyalardır.

Sovet psixologiya elmi hansı inkişaf mərhələsini keçmişsə, Azərbaycan psixologiya elmi də oxşar inkişaf yolu keçmişdir.

"XX əsrin əvvəllərindən başlayaraq respublikamızda psixologiya elmi müxtəlif istiqamətlərdə (ümumi, tarixi problemlərin tədqiqi, yaş və pedaqoji psixologiya, şəxsiyyət psixologiyası, hüquq, sosial və xüsusi psixologiya və s.) inkişaf edib formalaşmışdır" (Ə.T.Baxşəliyev).Təkcə onu demək kifayətdir ki, başlanğıcda heç bir psixoloq kadrın olmadığı halda, bu müddət ərzində 20 nəfərə qədər elmlər doktoru yetişmişdir. Fərəhli haldır ki, onlardan 11 nəfəri müstəqillik dövründə elmlər doktoru alimlik dərəcəsi almışdır.

Əlbəttə, bu psixoloqlardan hər birinin elmin inkişafında müəyyən rolu olmuşdur. Xüsusilə, A.O.Makovelski, F.Ə.İbrahimbəyov, Ə.K.Zəkuyev, M.C.Məhərrəmov, M.Ə.Həmzəyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.H.Əliyev psixologiya elminin inkişafında böyük rol oynamışlar. Bununla belə ayrı-ayrı görkəmli psixoloqların yaradıcılığı təhlil olunmayıb, onların psixologiya elminin inkişafında rolu araşdırılmayıb. Halbuki, görkəmli Azərbaycan psixoloqlarının şəxsiyyəti, şəxsi keyfiyyətləri, fəaliyyətlərinin

istiqamətləri öyrənilsəydi, bu həm psixologiya elminin keçdiyi mərhələlər, həm də şəxsi nümunə baxımından faydalı olardı. Professor Ə.Əlizadənin yaradıcılığı da qeyd olunduğu kimi bir neçə məqalə və tədqiqat işlərində araşdırılmış, onun yardıcılığı və ərsəyə gətirdiyi psixoloji ideyalar geniş rakursda öyrənilməmişdir. Psixologiya sahəsində özünün önəmli tədqiqatları ilə seçilən professor Ə.Ə.Əlizadə Azərbaycan psixologiyasının hər bir müvəffəqiyyətini öz uğuru kimi qəbul edirdi. O, yazırdı: "Professor B.H.Əliyevin Azərbaycan MEA-nın müxbir üzvü seçilməsi ilə, mənim fikrimcə, XXI əsr Azərbaycan psixologiyası tarixində yeni mərhələ, necə deyərlər, akademiya mərhələsi başlayır" (39, s.98 ).

Bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanda psixologiya elminin təşəkkülü, inkişafı, müxtəlif problemləri müəyyən qədər öyrənilsə də sistemli şəkildə araşdırılmayıb. Dünyada, eləcə də Rusiyada ayrı-ayrı görkəmli alimlərin həyat və fəaliyyəti geniş şəkildə öyrənilsə də, Azərbaycanda bu nədənsə öz həllini tapmayıb. Professor Ə.Əlizadənin Azərbaycanda elmi psixologiyanın inkişafında rolunun sistemli tədqiqinin olmaması bu problemi aktuallaşdırır və tədqiqini zəruri edir.

**Tədqiqatın obyektini** Azərbaycanda elmi psixologiyanın təşəkkülü və inkişafının öyrənilməsi təşkil edir.

**Tədqiqatın predmeti** görkəmli psixoloq Ə.Ə.Əlizadə yaradıcılığının Azərbaycanda elmi psixologiyanın inkişafına təsirinin öyrənilməsindən ibarətdir.

**Tədqiqatın məqsədi** Azərbaycanda elmi psixologiyanın inkişaf qanunauyğunluqlarını müəyyənləşdirmək, onun inkişaf dinamikasını izləmək və Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadə yaradıcılığının rolunu öyrənməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Əgər Ə.Ə.Əlizadənin elmi yaradıcılığı sistemli tədqiq olunarsa və onun əsərlərində əks olunmuş ideyaları hərtərəfli təhlil olunarsa Azərbaycan psixologiyasının dünya psixologiyasına inteqrasiyasına zəmin yaranar və gələcək tədqiqatçıların fəaliyyətində də bu istiqamətdə müsbət nəticələr gözləmək olar.

**Tədqiqatın vəzifələri**. Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadənin rolunu müəyyənləşdirmək;

– Ə.Ə.Əlizadə yaradıcılığı ilə onun şəxsi keyfiyyətləri arasındakı vəhdət və bağlılığı araşdırmaq, onun yaradıcılığının psixologiya elminin inkişafına təsirini müəyyənləşdirmək;

– Azərbaycanda psixologiya elminin inkişafında xarici ölkə psixoloqlarının ideya və nəzəriyyələrinin təsirini araşdırmaq, bu sahədə Ə.Ə.Əlizadənin rolunu təhlil etmək;

– Azərbaycan psixoloqlarının ideya və nəzəriyyələrinin xarici ölkələrdə yayılmasında Ə.Ə.Əlizadənin rolunu öyrənmək;

– Ə.Ə.Əlizadənin psixoloji ideyalarının Azərbaycan təhsil konsepsiyasının formalaşmasına təsirini araşdırmaq.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Dissertasiyanın metodoloji əsasını psixologiya tarixinin konseptual müddəaları təşkil edir. Ə.Ə.Əlizadənin zəngin yaradıcılığı bu baxımdan tədqiq olunur. Görkəmli xarici ölkə psixoloqlarının psixologiya tarixi, şəxsiyyət, psixika və şüur, davranışla bağlı nəzəri müddəaları, Azərbaycan psixologiya elminin inkişafında onların rolu, istifadə imkanları öyrənilir.

Tədqiqatın gedişində metod kimi tarixi ümumiləşdirici təhlil, elmi-nəzəri təhlil, müqayisəli-tipoloji təhlildən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində Azərbaycanda elmi psixologiyanın inkişafında müstəsna xidməti olmuş Ə.Əlizadənin elmi yaradıcılığı araşdırılmış, "psixi cins", təxəyyül problemi və yeni pedaqoji təfəkkür kontekstində müəllifin irəli sürdüyü elmi fikirlərin və apardığı eksperimentlərin elmi psixologiyanın inkişafında rolu aydınlaşdırılmışdır.

Bununla yanaşı bu tədqiqat işində:

– Görkəmli Azərbaycan psixoloqu Ə.Ə.Əlizadənin milli tərbiyə konsepsiyasının mahiyyəti açıqlanmış, onun söykəndiyi etnik psixoloji məziyyətlər diqqət mərkəzinə gətirilmiş, milli tərbiyə modelinin psixopedaqoji cəhətləri təhlil edilmişdir.

–Ə.Ə.Əlizadənin Azərbaycan psixologiyasının inkişaf istiqamətlərində yaratdığı konseptual məqamlar, o cümlədən təlim taksonomiyaları, ümumpsixoloji məsələlərin elmi ideyalar formasında təqdiminin xüsusiyyətləri müəyyən edilmişdir.

-Ə.Ə.Əlizadənin elmi yaradıcılığının ayrı-ayrı məqamları ümumpsixoloji kontekstdən tədqiq edilmiş, milli psixologiyanın inkişafında müəllifin verdiyi töhfələr diqqət mərkəzinə gətirilmiş, onun bütünlüklə psixologiya elminin inkişafında rolu təhlil edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Ə.Ə.Əlizadə keçmiş SSRİ-də cinsi tərbiyə və cinsi fərqlərin psixologiyasını tədqiq edən psixoloqlardan olmaqla yanaşı, ilk dəfə olaraq elmi psixologiyaya "psixi cins" anlayışını gətirmiş və bu anlayış uzun müddət tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

- B.Blum və C.Gilfordun taksonomiyaları üç sahəni - idrak, emosional və psixomotor sahələri əhatə edir. Ə.Ə.Əlizadə isə onların ideyalarını inkişaf etdirərək təlimin təhsil, inkişafetdirici və tərbiyəedici funksiyalarını önə çəkir. Ə.Ə.Əlizadə təhsil bölməsinə bilik, bacarıq və vərdişləri aid edir. İnkişafetdirici təlim bölməsində təfəkkür, təxəyyül və hafizənin inkişafına xüsusi yer verilir. Ə.Ə.Əlizadəyə görə burada hafizənin inkişafı məqsəd deyil, vasitədir.

- Ə.Ə.Əlizadənin yeni pedaqoji təfəkkür kontekstində təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi ideyası müəllim-şagird münasibətlərinin yeni təhsil modelləri fonunda nəzərdən keçirilməsinə zəmin yaratdı. Burada isə başlıca yeri empatiya, səmimilik, inam və etimad tutur. Ə.Ə.Əlizadəyə görə insanlar bir-birlərini düzgün anlamayanda onların arasında bir qayda olaraq müxtəlif konfliktlər əmələ gəlir.

- Ə.Ə.Əlizadə öz yaradıcılığında rus, Avropa və ABŞ psixoloqlarının yaradıcılığına istinad etmiş, onu milli xüsusiyyətlər baxımından təhlil etmiş, koqnitiv, humanist psixologiyanın, onun yaradıcıları və görkəmli nümayəndələri K.Levin, K. Rocers, E.Erikson və başqalarının respublikamızda tanınması baxımından əvəzsiz işlər görmüşdür. Eyni zamanda gürcü, rus, Orta Asiya psixoloqları Ə.Ə.Əlizadə yaradıcılığından bəhrələndiklərini özləri də etiraf etmişlər.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Dissertasiyada irəli sürülmüş müddəalar, nəzəri ideyalar, alınmış nəticələr ümumi psixologiyanın, şəxsiyyət psixologiyasının, pedaqoji psixologiyanın, sosial psixologiyanın, psixologiya tarixinin nəzəriyyələrinə yenilik gətirə, xarici ölkə psixoloqlarının elmi ideyalarının öyrənilməsinə, onların Azərbaycan psixologiya elmində tətbiqində yardımcı ola bilər.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat materiallarından ali təhsil müəssisələrinin bakalavr və magistr pillələrində mühazirə və seminar məşğələlərində, xüsusilə "Psixologiya tarixi"nin tədrisində, praktik psixoloqların fəaliyyətində, təhsil konsepsiyalarının hazırlanmasında, psixologiyanın müxtəlif sahələri üzrə tədqiqatların aparılmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.**Tədqiqatın nəticələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin seminarlarında, respublika elmi-praktik konfranslarında məruzə olunmuş, tezis və məqalə şəklində çap edilmişdir. Tədqiqatın nəticələrindən bakalavr və magistr pilləsində mühazirə və seminarlarda istifadə olunmuş və bu yolla aprobasiyadan keçirilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə səviyyəsi haqqında məlumat verilir, tədqiqatın məqsəd və vəzifələri açıqlanır, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti və s. göstərilir.

Dissertasiyanın **"Azərbaycanda psixologiya elminin təşəkkül və inkişafında professor Ə.Ə.Əlizadə yaradıcılığının rolu"** adlanan birinci

fəsli üç yarımfəsildən ibarətdir. Bu fəsildə Azərbaycanda psixoloji fikir və elmi psixologiyanın təşəkkülü, inkişafı problemi araşdırılır, elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadənin rolu və yerindən bəhs olunur. I fəslin **"Azərbaycanda psixoloji fikir və elmi psixologiyanın yaranması və inkişafı"** adlanan birinci yarımfəslində Azərbaycanda psixologiyanın yaranmasının mərhələləri, onun inkişaf istiqamətləri araşdırılır. Göstərilir ki, ilkin olaraq psixoloji fikir, daha sonra elmi psixologiya yaranmış, inkişaf etmişdir. Bunlardan birincisi elməqədərki, ikincisi elmi psixologiya kimi öyrənilib, təhlil olunur. Elməqədərki psixoloji fikrin yaranma tarixi çox qədimlərdən başlamış, Şərq fəlsəfi fikri və xalq yaradıcılığı nümunələrindən bəhrələnərək inkişaf etmişdir. Bütün bunlar həm də ictimai-tarixi proseslərdən asılı olaraq inkişaf etmişdir.

Elməqədərki psixoloji fikrin təşəkkülü və inkişafı problemi pedaqoq və psixoloqların (B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, A.O.Makovelski, Ə.K.Zəkuzadə, Ə.T.Baxşəliyev, R.İ.Əliyev, F.A.Rüstəmov və b.) əsərlərində təhlil olunmuş, onların psixoloji-pedaqoji mahiyyəti öyrənilmişdir.

Azərbaycanda elmi psixologiya 1919-cu ildə yaranmış, ictimai-tarixi proseslərin təsiri ilə inkişaf edib formalaşmışdır. 30-cu illərin əvvəllərində SSRİ-də ideoloji mübarizə kəskinləşdi, pedaqoji tədqiqatlarda sinfilik prinsipinin vulqarlaşmasına təkan verildi, elmi mübahisə və diskussiyalar kəskinləşməyə başladı. B.B.Komarovski, A.O.Makovelski, Ə.Seyidov, Ə.Zəkuzadə, F.İbrahimbəyov fiziki və mənəvi təzyiqlərdən qorunmaq məqsədilə özünütənqidə, etirafa başladılar.

Azərbaycanda psixologiya elminin ikinci mərhələsi keçən əsrin 50-90-cı illərini əhatə edir. Bu dövrdə Azərbaycan psixoloqlarının elmi əlaqələri genişlənir, ümumi, yaş, pedaqoji, sosial psixologiya sahəsində önəmli uğurlar qazanılır.

Respublikamız müstəqillik əldə etdikdən sonra psixologiya elminin inkişafında yeni mərhələ başlamışdır. Dünyanın inkişaf etmiş ölkələrinin məşhur psixologiya məktəbləri və görkəmli alimlərin tədqiqatları, əsərləri, nəzəri ideyaları ilə yaxından tanış olmaq imkanı qazanılmışdır. İxtisaslı kadr hazırlığına başlanılmış, dərslik və monoqrafiyalar nəşr olunmuşdur.

Dissertasiyanın I fəslinin **"Professor Ə.Ə.Əlizadənin həyat və fəaliyyətinin ümumi xarakteristikası"** adlı ikinci yarımfəslində professor Ə.Ə.Əlizadənin psixologiya elminə gəlişi, 50-60-cı illərin ictimai-siyasi mühiti, onun fəaliyyətinin 50-ci illər dövrü araşdırılır. Ə.Ə.Əlizadənin formalaşmasında vacib rol oynayan tələbəlik illəri, dərs deyən müəllimlərin təsiri və köməkliyi, eləcə də tələbəlik illərindəki elmi yaradıcılığı öyrənilir. 1962-ci ildə «Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri» mövzusunda müdafiə etdiyi namizədlik dis-

sertasiyasının məziyyətləri açıqlanır.

Ötən əsrin 50-ci illərində ABŞ və Qərbi Avropa psixoloqları koqnitiv psixologiya sahəsində tədqiqatlara üstünlük verirdilər. Maraqlıdır ki, Ə.Ə.Əlizadə yaradıcılığının həmin dövrləri üçün də bu istiqamət aparıcı xətt təşkil edirdi.

Keçən əsrin 60-cı illərin ortalarınadək psixoloji tədqiqatların nəticələrinin məktəb təcrübəsinə tətbiq olunmasına maraq göstərmirdilər və bu işləri öz səlahiyyətlərinə aid etmirdilər.

60-cı illərin ortalarından başlayaraq V.V.Davıdov, V.A.Krutetski, Ş.A.Amonaşvili və b. Rusiyada, Gürcüstanda məktəb təcrübəsini öyrənir, eksperimentor tədqiqatlar aparır, uğurlu nəticələr əldə edirdilər. Azərbaycanda da bu işləri Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə yerinə yetirir, psixoloji tədqiqatların nəticələrini uğurla təlim-tərbiyə prosesinə tətbiq edirdilər.

Ə.Ə.Əlizadə yaradıcılığı demək olar ki, Azərbaycan psixologiya elminin bütün sahələrini əhatə edir. Lakin bu yaradıcılığı bütövlükdə bir neçə istiqamətdə birləşdirmək olar. Bu sırada təbii ki, ilk yeri təxəyyül problemi tutur. Bunu Ə.Ə.Əlizadənin özü də etiraf edir: “70 yaşın işığında retrospektiv ölçülərlə dönüb arxaya baxanda ilk növbədə təxəyyül sahəsindəki araşdırmalarımı xatırlayıram. Bu araşdırmaların kökü koqnitiv psixologiya ilə bağlı olmuşdur”.

Ə.Ə.Əlizadə yaradıcılığından bəhs edən R.İ.Əliyev yazır ki, Ə.Ə.Əlizadə bu sahəyə təsadüfən gəlmədiyini yüksək elmi, analitik təfəkkürü, müəllimlik qabiliyyəti, şəxsiyyəti ilə sübut etmişdir.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəslində **“Professor Ə.Ə.Əlizadə şəxsiyyəti və yaradıcı fəaliyyətinin qarşılıqlı əlaqəsi”** araşdırılır. Göstərilir ki, hər bir insanın peşə fəaliyyəti, seçdiyi peşənin xüsusiyyətləri onun davranışına, psixologiyasına, xarakterinə və xüsusiyyətlərinə əsaslı şəkildə təsir edir. Eləcə də əksinə, seçdiyi, fəaliyyət göstərdiyi peşədə uğur qazanıb-qazanmaması həmin insanın fərdi-psixoloji xüsusiyyətlərindən, şəxsi keyfiyyətlərindən çox asılıdır.

Ə.Ə.Əlizadənin, ilk növbədə, şəxsi keyfiyyətləri ilə müəllim kimi fəaliyyəti arasında bağlılıq vardır. Ə.Ə.Əlizadə özü pedaqoji fəaliyyətlə məşğul olmasını, sevimli tələbələrinə psixologiya elminin sirlərini öyrətməsini tale payı kimi qiymətləndirir. Eyni zamanda, onun şəxsiyyətinin polifoniyası nəinki zəngin elmi yaradıcılığında, həm də ilk növbədə insanlarla, kolleqaları, dostları və tələbələri ilə ünsiyyətində bütün aydınlığı ilə əks olunub. Göstərilir ki, ziyalı mədəniyyəti onun insanlarla qarşılıqlı münasibətlərinin ana xəttini təşkil edir.

Ə.Ə.Əlizadə hər bir insana həssas, mehriban, xeyirxah münasibət

bəsləyir, istənilən hadisəyə milli-mənafe baxımından yanaşır. Ə.Ə.Əlizadə yaradıcılığı və şəxsiyyətin öyrənilməsi, şəxsi keyfiyyətlərinin təhlili, avtobioqrafiyası ilə tanışlıq göstərir ki, o, öz elmi ideyalarının reallaşması, elmi axtarışları sahəsində dönməzlik nümunəsi olmuşdur. O, hər vaxt elmi fəaliyyəti məişət məsələlərindən üstün tutmuşdur. Bunun nəticəsində o, ətrafda olan insanların rəğbət və hörmətini qazanmış, özündən sonrakı nəsillər üçün yaxşı örnək olmuşdur.

Dissertasiyanın II fəsli **"Professor Ə.Ə.Əlizadə yaradıcılığında tərbiyə məsələləri və psixologiya elminin inkişafına onun təsiri"** probleminə həsr olunub. Fəslin **"Xarici ölkə psixoloqlarının ideya və nəzəriyyələrinin professor Ə.Ə.Əlizadə yaradıcılığına təsiri"** adlanan birinci yarımfəslində Qərbi Avropa və ABŞ-da Rusiyada elmi psixologiyanın təşəkkülü, inkişafı və onların Azərbaycanda psixologiya elminin inkişafına təsirindən bəhs olunur. Eyni zamanda göstərilir ki, XX əsrin əvvəllərində ABŞ-da sənayenin kənd təsərrüfatının, ticarətin sürətli inkişafı yeni psixoloji məktəbin – biheviorizmin yaranmasına səbəb oldu. Almaniyada geştalt psixologiya, psixoanaliz, daha sonra koqnitiv psixologiya yarandı. 50-ci illərin sonlarında ABŞ-da humanist psixologiya yarandı. Onun yaradıcıları Q.Olport, A.Maslou, K.Rocers, K.Levin və başqaları oldu. Humanist psixologiyanın başlıca ideyası ondan ibarətdir ki, insana sərbəst seçim imkanı, iradə azadlığı verildikdə o, öz davranışında daha məsuliyyətli olur, başqa insanlara xeyirxah münasibətlə yanaşır.

Dünya psixologiya elmində gedən proseslər, xüsusilə Rusiyada baş verənlər Azərbaycan psixologiya elminə, o cümlədən Ə.Ə.Əlizadə yaradıcılığına ciddi təsir göstərmişdir. Ötən əsrin 50-ci illərində koqnitiv psixologiyanın inkişafı ilə Ə.Ə.Əlizadə yaradıcılığında da koqnitiv psixologiya məsələləri öz əksini tapmışdır. 60-cı illərdə humanist psixologiyanın inkişafı isə Ə.Ə.Əlizadə yaradıcılığının ana xəttini təşkil etdi.

Eyni zamanda Ə.Ə.Əlizadə yaradıcılığından SSRİ miqyasında bəhrələnilirdi.

Müstəqillik illərində Ə.Ə.Əlizadə yaradıcılığında etnopsixologiya məsələləri daha geniş şəkildə özünə yer tutdu. Ə.Ə.Əlizadənin mühüm xidmətlərindən biri də məşhur psixologiya məktəblərinin, eləcə də dünyanın məşhur psixoloqlarının ideya və nəzəriyyələrini Azərbaycan psixologiya elminə gətirməsi ilə bağlıdır.

Dissertasiyanın II fəslinin **"Professor Ə.Ə.Əlizadə yaradıcılığında cinsi fərqlər və cinsi tərbiyə məsələləri"** adlanan ikinci yarımfəslində Azərbaycan psixologiya elmində əsası Ə.Ə.Əlizadə tərəfindən qoyulan cinsi dimorfizm məsələlərindən bəhs olunur. R.İ.Əliyev, Ə.T.Baxşəliyev və başqalarının tədqiqatlarına istinad olunaraq göstərilir ki, cinsi tərbiyə və

cinsi fərqlərin psixologiyası üzrə Ə.Ə.Əlizadənin apardığı tədqiqatlar SSRİ miqyasında qəbul olunmuş, bu sahədə məktəb yaratmağa nail olmuşdur. Onun rəhbərlik etdiyi aspirant və dissertantlar S.Şabanov, N.Səlimova, Z.Şirinova, R.Əliyev və başqaları Ə.Ə.Əlizadə yaradıcılığına istinad edərək cinsi tərbiyə və cinsi fərqlərin psixologiyası ilə bağlı tədqiqatlar aparmışlar.

Göründüyü kimi, Ə.Ə.Əlizadə cinsi fərqlərin öyrənilməsi üzrə fundamental tədqiqatlar müəllifidir. O, bu sahədə tədqiqat aparan psixoloq və pedaqoqların əksəriyyətinin tədqiqatları ilə tanış olmuş, onlara münasibət bildirmişdir. Onların əsasında özünün mövqeyini ortaya qoya bilmişdir. 1970-illərdə ADPU-nun ümumi psixologiya kafedrasının araşdırılmalarında elmdə demək olar ki, ilk dəfə psixi (psixoloji) cins anlamı təklif edilmiş, cinsi tipikləşmə kontekstində onun strukturu açıqlanmış, cinsi fərqlər məsələsi tədqiqatının metodologiyası və metodikası kökündə sistemli araşdırılmışdır.

Dissertasiyanın II fəslinin üçüncü yarımfəsli **"Professor Ə.Ə.Əlizadə yaradıcılığında etnik psixologiya məsələləri"** adlanır. Bu yarımfəsildə etnopsixologiyanın yaranması istiqamətləri və onun başlıca xüsusiyyətlərindən bəhs olunur, eləcə də Ə.Ə.Əlizadənin "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri», "Azərbaycan etnopsixologiyasına giriş" və s. əsərləri təhlil edilir. Bunlarla yanaşı, İ.Kant, Z.Freyd, H.Tard, Q.Levon kimi məşhur alimlərin millət, xalq barədə fikirlərinə istinad olunmaqla milli xüsusiyyətlər probleminə münasibət bildirilir.

Ə.Ə.Əlizadə görkəmli mütəfəkkirlərin yaradıcılığına müraciət edir və bu nəzəri ideyalara əsaslanaraq Azərbaycan mühitini, Azərbaycan xalqının keçdiyi ictimai-tarixi şəraiti təhlil edir, azərbaycanlıların psixoloji mənzərəsini yaradır. Etnopsixologiya sahəsindəki tədqiqatlarında Ə.Ə.Əlizadə belə bir prinsipə əsaslanır ki, bu və ya digər xalqa məxsus olan psixi və əxlaqi keyfiyyətləri yalnız ümumi dəyərlər sisteminin, həyat tərzinin vəhdətində və daxilində öyrənmək mümkündür.

Ə.Ə.Əlizadəyə görə, Azərbaycan xalqının təfəkkürü iki önəmli fenomenin – konkretliklə mücərrədliyin kökündən qaynaqlanır. Digər bir cəhət isə insani münasibətlərlə bağlıdır. Münasibətlərin özünəməxsus xüsusiyyətlərindən bəhs edərkən Ə.Ə.Əlizadə bunu atalar sözlərində axtarır. Göstərir ki, atalar sözləri etnopsixoloji fikrin ənənəvi formasıdır. Göründüyü kimi, Ə.Ə.Əlizadə yaradıcılığının Azərbaycanda elmi psixologiyanın inkişafında, inkişaf etmiş ölkələrin psixoloqlarının ideyalarının Azərbaycan psixologiya elminə gətirilməsində, eləcə də Azərbaycan psixologiya elminin xarici ölkələrdə təmsil olunmasında, təbliğində müstəsna rolu olmuşdur.

Dissertasiyanın III fəsli "**Azərbaycanda təlim psixologiyasi və təhsil konsepsiyasının formalaşmasında professor Ə.Ə.Əlizadə yaradıcılı-**

**ğının rolu”** adlanır. Bu fəslin **“Azərbaycanda psixologiya üzrə dərslik və dərs vəsaitlərinin hazırlanmasında professor Ə.Ə.Əlizadənin rolu”** adlanan birinci yarımfəslində dərslik və dərs vəsaitlərinin ümumi məziyyətləri, onların inkişafetdirici və tərbiyəedici rolundan, hazırlanmasına verilən tələblərdən müxtəsər şəkildə bəhs edilir. Azərbaycanda psixologiya üzrə dərsliklərin yaranması, inkişaf tarixi də bu yarımfəsildə araşdırılır. Eyni zamanda göstərilir ki, 20-60-cı illər ərzində «Psixologiya» dərsliyinin hazırlanmasında o qədər də böyük müvəffəqiyyət qazanılmayıb. İlk fundamental «Psixologiya» dərsliyi 1964-cü ildə nəşr olunub və onun müəlliflərindən biri də Ə.Ə.Əlizadədir.

Növbəti fundamental «Psixologiya» dərsliyi Ə.S.Bayramov və Ə.Ə.Əlizadə tərəfindən 1989-cu ildə yaradılır. Bu dərslikdə diqqəti cəlb edən cəhətlərdən biri də cins-yaş və milli xüsusiyyətlərin önə çəkilməsi ilə bağlıdır.

Ə.Ə.Əlizadənin Ə.S.Bayramov və digər müəlliflərlə birlikdə sosial psixologiya üzrə hazırladıqları dərsliklər də diqqəti cəlb edir. Məhz bu dərsliklərin hazırlanması pedaqoji psixologiya, yaş psixologiyası və s. sahələr üzrə də digər müəlliflərin dərslik və dərs vəsaitləri hazırlamalarına zəmin yaratdı.

Hazırda Azərbaycanda psixologiya elminin inkişafı üçün münbit şərait yaranmışdır. Psixologiyanın praktik istiqaməti güclənmişdi. Ümumtəhsil məktəblərində praktik psixoloqlar fəaliyyət göstərir. Müxtəlif istiqamətli fəaliyyət sahəsində çalışan psixoloqlar, eləcə də tələbələr üçün dərsliklərin hazırlanması zərurəti yaranmışdır. Bu sahədə Ə.Ə.Əlizadə ilə yanaşı B.H.Əliyev, K.R.Əliyeva, R.V.Cabbarov, R.İ.Əliyev, Ə.T.Baxşəliyev və başqaları səmərəli fəaliyyət göstərirlər. Dərsliklərin hazırlanmasında tədris olunan fənlər nəzərə alınır. Bura «Hüquq psixologiyası», «Sosial psixologiya» və s. sahələr daxildir.

Dissertasiyanın III fəsilin ikinci yarımfəsli **“Professor Ə.Ə.Əlizadənin psixoloji ideyalarının Azərbaycan təhsil konsepsiyasının formalaşmasına təsiri”** adlanır. Bu yarımfəsildə Respublikamızın təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası, şəxsiyyətyönümlü təhsilin qurulması, təhsil subyektlərinə yeni yanaşma qaydaları, pedaqoji məsələlərin psixoloji xüsusiyyətlərindən bəhs olunur. Göstərilir ki, təhsil islahatlarının başlıca məqsədi və vəzifəsi ölkənin iqtisadi, siyasi, mədəni cəhətdən möhkəmlənməsinə xidmət edən, cəmiyyət üçün faydalı olan şəxsiyyətlər formalaşdırmaqdır.

Təhsil konsepsiyasının hazırlanmasında Ə.Ə.Əlizadənin irəli sürdüyü təhsilin humanistləşdirilməsi, psixolojiləşdirilməsi, yeni “pedaqoji təfəkkürə” keçilməsi, fənlərin inteqrasiyası, monoloji mədəniyyətdən dialoji

mədəniyyətə, «subyekt-subyekt» münasibətlərinə keçilməsi ideyalarından istifadə olunmuşdur. Ə.Ə.Əlizadə göstərir ki, müasir dövrdə məktəbin nəinki pedaqoji, həm də ilk növbədə sosial və sosial-psixoloji vəzifələri bu önəmli meyarlarla müəyyən olunur.

Ə.Ə.Əlizadənin irəli sürdüyü başlıca ideyalardan biri də «Hafizə məktəbi»ndən «Təfəkkür məktəbi»nə keçidlə bağlıdır.

Dissertasiyanın III fəslin "Professor Ə.Ə.Əlizadə yaradıcılığında istedadlı uşaqlar problemi" adlanan sonuncu yarımfəslində istedadlı uşaqların müəyyənləşdirilməsi, onlarla təlimin təşkili və tərbiyəsi problemlərindən bəhs olunur. Göstərilir ki, istedadlı uşaq milli sərvətdir. Ölkənin sosial-iqtisadi inkişafı bilavasitə istedadlı uşaq problemi ilə bağlıdır. Ə.Ə.Əlizadə göstərir ki, istedadın müəyyənləşdirilməsi, üzə çıxarılması və onlarla işin təşkili elmi-psixoloji əsaslara söykənmədikdə, yalnız güzəran təcrübələrinə istinad edildikdə təəssüfləndirici nəticələr alınır.

Ə.Ə.Əlizadəyə görə istedad şəxsiyyətin inteqrativ keyfiyyətidir. Şəxsiyyətin bütün keyfiyyətləri məhz bu sahədə görünməz tellərlə bir-birilə bağlıdır. İstedad nə vaxtsa üzə çıxır, lakin onun vaxtında müəyyənləşdirilməsi daha səmərəli üsul hesab olunur. Belədə şəxsiyyətin inkişafı, eləcə də intellektin dərinləşməsi üçün geniş imkan yaranır.

Ə.Ə.Əlizadə vunderkindlərlə bağlı məsələnin bir tərəfinin uşağın istedadının son dərəcə şişirdilərək hədsiz təriflənməsi ilə, bununla da onda eqoizm və yüksək özünüqiymətləndirmə yaranması ilə bağlı olduğunu bildirir. Belədə uşaq özünü qeyri-adi adam kimi qavrayır, nəticədə özünə və başqalarına qarşı qeyri-adekvat münasibət formalaşır.

Apardığımız tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Ədəbiyyatın təhlili və tədqiqatın gedişindən alınan nəticələrin ümumiləşdirilməsi göstərir ki, Azərbaycanda elmi psixologiya təşəkkül tapdığı vaxtdan bu günədək ciddi bir inkişaf yolu keçmiş, tarix üçün çox da uzun olmayan müddətdə xeyli uğurlar qazanmışdır. İstər xalq yaradıcılığı nümunələrində, istər klassik şair və yazıçıların, görkəmli mütəfəkkirlərin əsərlərində mühüm psixoloji fikir və ideyalar öz əksini tapmışdır.

-Elmi psixologiya ilə yanaşı güzəran psixologiyası da mövcud olmuşdur və indi də belədir. İnsanların başqaları ilə ünsiyyət və münasibəti prosesində müşahidələrə əsasən onlara dair fikirləri formalaşır. Bunlar ümumiləşdirilir, sosial etalon və stereotiplər yaranır.

- Ə.Ə.Əlizadəni şərti olaraq Azərbaycan psixoloqlarının ikinci nəslinə aid etmək olar. Ə.Ə.Əlizadənin, eləcə də həmin nəslin nümayəndələrindən olan Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov və başqalarının Azərbaycanda psixologiya elminin inkişafında müstəsna xidmətləri olmuşdur. Ötən əsrin 60-cı illərindən başlayaraq onlar psixologiya dərsliklərinin

hazırlanmasında, psixoloq kadrlarının yetişməsində, elmi əlaqələrin qurulmasında və s. əhəmiyyətli rol oynamışlar.

- Ötən əsrin 50-ci illərinin ortalarında Qərbdə, ABŞ-da koqnitiv psixologiya üzrə geniş tədqiqatlar aparıldı. SSRİ-də, eləcə də Azərbaycanda koqnitiv psixologiya inkişaf etməyə başladı. Respublikamızda bu sahədə ilk tədqiqat aparanların sırasında Ə.Ə.Əlizadə də var idi. Onun 1962-ci ildə müdafiə etdiyi "Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri" adlı namizədlik dissertasiyası məhz koqnitiv psixologiya kontekstində qiymətləndirilməlidir.

- Azərbaycanda psixologiya üzrə dərsliklərin hazırlanmasında Ə.Ə.Əlizadə yaxından iştirak etmişdir. Azərbaycanda ilk dərsliklərin hazırlanmasına ötən əsrin 50-ci illərindən başlansa da "Psixologiya" adlı ilk fundamental dərslik 1964-cü ildə nəşr olunmuşdur. Sonrakı illərdə Ə.Ə.Əlizadə psixologiyanın müxtəlif sahələri – yaş, pedaqoji, sosial, hüquq psixologiyası üzrə çoxsaylı dərsliklərin işlənməsində yaxından iştirak etmişdir. Dərslik hazırlanması sahəsində Ə.Ə.Əlizadə, Ə.S.Bayramov nümunəsi digər psixoloqlar üçün də yaxşı örnək olmuş, onlar da dərsliklər hazırlayıb nəşr etdirmişlər.

- Ə.Ə.Əlizadə yaradıcılığında cinsi dimorfizm, cinsi tərbiyənin psixoloji xüsusiyyətlərinin araşdırılması xüsusi yer tutur. Onun 1975-ci ildə müdafiə etdiyi "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin psixoloji problemləri" adlı doktorluq dissertasiyası nəinki respublikamızda, ümumən sovetlər ittifaqında böyük bir hadisə kimi dəyərləndirilirdi. Qadağan olunmuş cinsi tərbiyə, cinsi fərqlərin psixologiyası problemini SSRİ-də ilk tədqiq edənlərdən biri də Ə.Ə.Əlizadə olmuşdur. Problemin elmi dəyəri barədə Moskva, Leninqrad, gürcü psixoloqları yüksək fikirlər söyləmişlər.

Sonrakı illərdə Ə.Ə.Əlizadə cinsi fərqlərin psixologiyası üzrə tədqiqatlarının istiqamətini genişləndirmiş, onu milli xüsusiyyətlər, sosial mühit kontekstində öyrənmişdir. Ə.Ə.Əlizadənin aspirant və dissertantlarının çoxu cinsi tərbiyə, cinsi fərqlərin psixologiyası ilə bağlı tədqiqatlar aparmışlar. Bu gün bu sahədə Ə.Ə.Əlizadənin məktəb yaratdığını tərəddüd etmədən söyləmək mümkündür.

-Ə.Ə.Əlizadə öz yaradıcılığında rus, Avropa və ABŞ psixoloqlarının yaradıcılığına istinad etmiş, onu milli xüsusiyyətlər baxımından təhlil etmişdir. Xüsusilə ötən əsrin 80-cı illərindən başlayaraq humanist psixologiyanın, onun yaradıcıları və görkəmli nümayəndələri K.Levin, K.Rocers, E.Erikson və başqalarının respublikamızda tanınması baxımından əvəzsiz işlər görülmüşdür. Eyni zamanda gürcü, rus, Orta Asiya psixoloqları Ə.Ə.Əlizadə yaradıcılığından bəhrələndiklərini özləri də etiraf etmişlər.

Azərbaycan psixoloqlarının yaradıcılığında pedaqoji psixologiya üzrə

aparılan tədqiqatlar digər sahələrlə müqayisədə daha geniş yer tutur. Lakin psixopedaqoji tədqiqatların respublikamızda ilk yaradıcısı və sistemli şəkildə bu işi həyata keçirən Ə.Ə.Əlizadə olmuşdur. Təhsil sahəsində həyata keçirilən islahatların hazırlanmasında Ə.Ə.Əlizadə yaxından iştirak edir.

Azərbaycan təhsil konsepsiyası hazırlanarkən Ə.Ə.Əlizadə yaradıcılığına dəfələrlə müraciət olunmuşdur. Təhsilin humanistləşdirilməsi, elmi-nəzəri ideyaların praktikaya tətbiqi, təlim modellərinin işlənməsi, fəal təlim metodlarının tədris prosesinə gətirilməsi və s. məsələlər işlənərkən Ə.Ə.Əlizadə yaradıcılığına istinad olunmuşdur.

- Müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrində istedad probleminin öyrənilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasında son illərdə problem ciddi şəkildə öyrənilir və həyata keçirilir. Xüsusilə, Azərbaycan Respublikası Prezidentinin sərəncamından, istedadlı uşaqlarla bağlı Dövlət Proqramından sonra istedadlı uşaqların öyrənilməsi ilə bağlı xeyli elmi-nəzəri tədqiqatlar aparılmış, praktik işlər görülmüşdür. B.H.Əliyev və E.B.Bəylərov istedadlı uşaqlar problemi ilə bağlı sistemli tədqiqatlar aparırlar. Lakin istedadlı uşaqlarla bağlı ilk fundamental əsər Ə.Ə.Əlizadə tərəfindən yazılmışdır. Göründüyü kimi ötən əsrin 60-cı illərindən yaradıcılığa başlayan Ə.Ə.Əlizadə Azərbaycanda elmi psixologiyanın inkişafında müstəsna rol oynamışdır.

Dissertasiyanın əsas məzmunu **müəllifin** aşağıdakı məqalə və tezisləinrdə öz əksini tapmışdır:

1. Ə.Ə.Əlizadənin psixopedaqoji ideyalarının Azərbaycan təhsil konsepsiyasının formalaşmasına təsiri // Psixologiya jurnalı, Bakı, 2012,№4, s. 126-141

2. Ə.Ə.Əlizadə yaradıcılığında etnik psixologiya məsələləri / /Psixologiya jurnalı, Bakı, 2013,№1, s. 152-163

3. Xarici ölkə psixoloqlarının ideya və nəzəriyyələrinin Əbdül Əlizadə yaradıcılığında rolu / / Psixologiya jurnalı, Bakı,2013, № 3,s. 114-125

4. Azərbaycanda elmi psixologiyanın inkişaf mərhələləri / Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları. Bakı: 2013, s.154-155

5. Müstəqillik illərində Azərbaycanda psixologiyanın inkişafı / Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları. Bakı: 2013, s.344-345

6. Görkəmli Azərbaycan psixoloqu professor Əbdül Əlizadənin yaradıcılıq yolu // Azərbaycan məktəbi, Bakı,2013, №1, s. 99-105

7. Ə.Ə.Əlizadə yaradıcılığında istedadlı uşaqlar problemi // Bakı Slavyan Universitetiin Elmi məqalələr məcmusu, Bakı,2013, №4, s. 215-225

8. Professor Əbdül Əlizadə yaradıcılığında cinsi fərqlər və cinsi tərbiyə

məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, Bakı, 2013, №4, s. 210-217

9. Professor Əbdül Əlizadə yaradıcılığında ailədaxili ünsiyyət məsələləri / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 iliyinə həsr olunmuş ümumi psixologiya və ümumi pedaqogika kafedralarının "Təhsilin aktual psixo-pedaqoji problemləri" mövzusunda elmi konfransının materialları. Bakı:2014, s. 83-90

10. Professor Əbdül Əlizadənin şəxsiyyəti ilə yaradıcı fəaliyyətinin qarşılıqlı əlaqəsi // Bakı Qızlar Universitetinin Elmi Əsərləri, Bakı,2014, № ,1 s.146-151.

11. Azərbaycanda psixoloji fikir və elmi psixologiyanın yaranması və inkişafı // Pedaqoji Universitetin Xəbərləri, Bakı,2014, № 1, s.135-1421

12. Гендерная проблема в творчестве профессора Абдул Али оглу Ализаде. Молодой учёный // Ежемесячный научный журнал, Казань, 2014, № 2, с.673-677

13. Социально-педагогический аспект проблемы одарённых детей в творчестве азербайджанских психологов / Совершенствование общего и профессионального образования инвалидов в процессе их реабилитации. Материалы международной научно-практической конференции. Санкт-Петербург: 2014, с. 264-267.

14. Роль проф. А.А.Ализаде в изучении психологии в Азербайджане // Вектор науки Тольяттинского Государственного университета. Серия: Педагогика, психология, Тольятти, 2014, №4(19), с.14-17.

**Егяна Бахыш гызы Аскерова**

## Роль творчества А.А.Ализаде в развитии научной психологии в Азербайджане

Диссертационная работа посвящена одному из актуальных вопросов психологии – становлению, развитию психологической науки в Азербайджане и роли выдающегося азербайджанского психолога, профессора А.А.Ализаде в этом процессе. Психологическая наука первоначально была создана на основе донаучных психологических мыслей, в последующий период сформировалась, пройдя различные этапы развития. В этом процессе важную роль сыграли отдельные выдающиеся психологи, в том числе профессор А.А.Ализаде.

Диссертация состоит из введения, трех глав, объединяющих в себе девять подглав, заключения и используемого списка литературы.

В I главе диссертации, называемой «Роль творчества профессора А.А.Ализаде в становлении и развитии психологической науки в Азербайджане» повествуется о создании, развитии психологической мысли и научной психологии в Азербайджане, об общей характеристике жизни и деятельности А.А.Ализаде, о взаимосвязи его личности и творческой деятельности. Указывается, что психологическая наука в Азербайджане в период развития зависела от общественно-политических событий, в различных периодах преимущество отдавалось исследованиям, проводимым в разных направлениях. В то же время в этом процессе активное участие принимали выдающиеся ученые.

Во II главе диссертации, называемой «Воспитательные вопросы в творчестве А.А.Ализаде и его влияние на развитие психологической науки» рассказывается о влиянии идей и теорий психологов иностранных государств на творчество А.А.Ализаде, о вопросах полового воспитания и половых различий в его творчестве, о проблемах изучения этнических особенностей. Указывается, что эти исследуемые проблемы не только обогатили психологическую науку в Азербайджане, но на это ссылались и ученые других республик.

III глава диссертации называется «Роль творчества профессора А.А.Ализаде в формировании психологии обучения и концепции образования в Азербайджане». В этой главе повествуется о подготовке учебников и учебных пособий по психологии в Азербайджане, о создании учебников по различным сферам психологии и участие А.А.Ализаде в этом процессе. В то же время широко объясняется использование идей А.А.Ализаде в подготовке концепции образования в Азербайджане, вопросы учебного воспитания талантливых детей.

В заключении подводятся итоги, подводимые в ходе исследования. Указывается, что с момента создания до сегодняшнего дня в Азербайджане психологическая наука прошла большой путь развития, и А.А.Ализаде внёс весомый вклад в это дело.

**Yegana Bakhish Askarova**

## The Role of A.A.Alizada's Creative Work in the Development of Scientific Psychology in Azerbaijan

The thesis deals with one of the actual issues of the psychology – the evolution, development of psychology in Azerbaijan and the role of well-known Azerbaijani psychologist, professor A.A.Alizada in this process. The science of psychology created on the basis of prescientific psychological thoughts in the initial period and developed through different development stages in the further period. Many well-known psychologists, including professor A.A.Alizada played an important role in this process.

The thesis consists of introduction, three chapters containing nine subchapters, conclusion and the list of used literature.

The Chapter I named "**The role of professor A.A.Alizada's creative work in the evolution and development of psychology in Azerbaijan**" deals with the establishment and development of psychological thought and scientific psychology in Azerbaijan, and general characteristics of A.A.Alizada's life and activity, his personality and mutual relation of his creative activity. The author shows that psychology depended on social and political events during its development in Azerbaijan and studies carried in various directions preferred in different periods. Simultaneously, well-known scientists took an active part in this process.

The Chapter II named "**Educational issues in professor A.A.Alizada's creative work and its influence to the development of psychology**" deals with the influence of ideas and theories of foreign psychologists to A.A.Alizada's creative work, issues on sexual education and sex differences in his creative work and issues on research of ethical features. In this Chapter you may find that the issues studied not only enriched Azerbaijani psychology but also other scientists referred to it.

The Chapter III is called as "**The role of professor A.A.Alizada's creative work in the formation of educational psychology and educational conceptions in Azerbaijan**". Preparation of manuals and training aids on psychology, creation of manuals on different sections of psychology in Azerbaijan and the participation of A.A.Alizada in this process are dealt with in the Chapter. At the same time, the use of A.A.Alizada's ideas in the preparation of educational conceptions in Azerbaijan and the educational issues of talented children are explained in a wide frame.

The conclusion obtained within the study process is given in the end. It is provided that the science of psychology developed greatly in Azerbaijan from the date of its formation up today and professor A.A.Alizada played an important role in the process.